

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 75 (21.485)

26 aprel 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Qazaxıstan Parlamenti Senatının sədri Kasım-Jomart Tokayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna toxunan qonaq müasir böhranlı dövrdə forumun ideya və məqsədlərinin böyük əhəmiyyət daşıdığını və Birləşmiş Millətlər Təşkilatının belə bir tədbirinin Bakıda keçirilməsinin önəmini vurğulayıb.

Dövlətimizin başçısı bildirib ki, BMT-nin Sivilizasiyalar Alyansının növbəti forumunun Bakıda keçirilməsi ölkəmizin sivilizasiyalararası dialoq çərçivəsində fəaliyyətinə verilən qiymətin nəticəsidir. Prezident İlham Əliyev Azərbaycanda bu istiqamətdə görülən işlərin, keçirilən tədbirlərin xalqların yaxınlaşması və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi işinə xidmət etdiyini vurğulayıb.

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə bu yaxınlarda İstanbulda İslam Əməkdaşlıq Təşkilatının növbəti Sammitində görüşünü məmnunluqla xatırlayıb. BMT-nin Sivilizasiyalar Alyansının Bakıda keçirilən VII Qlobal Forumunda Qazaxıstanın bu cür yüksək səviyyədə təmsil olunmasına görə minnətdarlıq edən dövlətimizin başçısı bunu Qazaxıstanın həm forumda müzakirə ediləcək məsələlərə olan marağının, həm də Azərbaycana münasibətinin yaxşı göstəricisi kimi dəyərləndirib.

## Akademik Zərifə xanım Əliyevanın doğum gününə həsr olunmuş aksiyalar davam edir

***Azərbaycanın görkəmli elm xadimi, oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi aprelin 28-dək keçiriləcək aksiyalarda aztəminatlı ailələrdən olan 93 nəfər göz qüsurlu şagird və tələbəni Almaniya istehsalı olan eynəklərlə təmin edəcəkdir.***

Şərur, Kəngərli, Ordubad rayonlarında keçirilən aksiyalardan sonra növbəti tədbirə Şahbuz Rayon Mərkəzi Xəstəxanası ev sahibliyi edib. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-pediatrı, Azərbaycan Respublikasının Əməkdar həkimi İbrahim Ağayev görkəmli alimin mənalı ömür yolundan və elmi fəaliyyətindən danışıb.

Qeyd olunub ki, Zərifə xanım oftalmologiyanın zəruri problemlərinə xüsusi diqqət yetirirdi. Bu problemlərin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə deyil, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə tədqiq olunması ilə əlaqədar idi. Zərifə xanım bu sahənin ilk tədqiqatçısı olub. Görkəmli alim bütün dünyada birinci olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktik olaraq elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoyub. Oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi də məhz Zərifə xanımın adı ilə bağlıdır.

Sonra Naxçıvan Muxtar Respublika Xəstəxanası Göz xəstəlikləri şöbəsinin həkimi Samiq Sadıqov çıxış edərək bildirib ki, Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparıb. Həmin müəssisələrdə zəhərli maddələrin təkcə görmə orqanına deyil, həm də digər orqanlara, o cümlədən ağciyər, böyrək, qaraciyər və ürəyə təsiri də öyrənilib. Göstərilən istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri görkəmli alimin dəyərli monoqrafiyalarında öz əksini tapıb. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə akademik Zərifə Əliyeva keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb.

Tədbirin sonunda aztəminatlı ailələrdən olan 10 məktəbliyə görmə qabiliyyətini yüksək səviyyədə təmin edən eynəklər təqdim olunub.

Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova belə aksiyaların əhalinin sağlamlığının mühafizəsində rolundan bəhs edib.

Aksiya çərçivəsində eynəklə təmin olunmuş uşaqların valideynləri çıxış edərək minnətdarlıqlarını bildiriblər.

## Orta ixtisas məktəbi üçün binada yenidənqurma işləri davam etdirilir



***Naxçıvan Muxtar Respublikasında peşə və orta ixtisas təhsilinə göstərilən dövlət qayğısının nəticəsidir ki, belə təhsil müəssisələrinin yenidən qurulması da diqqət mərkəzində saxlanılır. Görülən işlərdən Naxçıvan Dövlət Texniki Kollecinə də pay düşüb.***

Belə ki, bu təhsil ocağı üçün nəzərdə tutulmuş binada təmir və yenidənqurma işlərinə 2015-ci ilin aprel ayından başlanılıb. A və B korpuslarından ibarət olan bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. “Gəmiqaya İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən ötən müddətdə binanın giriş hissəsi dairəvi formada yenidən qurulub, pəncərələr dəyişdirilib, yeni qazanxana sistemi quraşdırılıb, elektrik, su və kanalizasiya xətləri yenilənib.

Binanın fasad hissəsi birinci mərtəbəyədək üzlük daşla üzlənib. Daxildə isə sinif otaqlarının qapıları dəyişdirilib, döşəmənin vurulması yekunlaşıb. Bina istifadəyə tam hazır olduqdan sonra A korpusunda zirzəmi hissədə qazanxana, mətbəx, kimya, biologiya və fizika laboratoriyaları, fənn kabinələri, birinci mərtəbədə elektron lövhəli sinif, kompüter sinfi, fənn kabinələri, ikinci mərtəbədə kompüter sinfi və elektron lövhəli siniflərlə yanaşı, müəllimlər otağı və digər sinif otaqları, üçüncü mərtəbədə 234 nəfərlik tədbirlər zalı və müxtəlif sinif otaqları istifadəyə veriləcək. B korpusunda isə bütün mərtəbələrdə sinif otaqları və fənn kabinələri olmaqla, sonuncu mərtəbədə arxiv, oxu zalı və kitabxana yerləşəcək.

## Culfa Rayon Mərkəzi Xəstəxanasında bir gündə 62 cərrahi əməliyyat aparılıb

***Muxtar respublikamızın səhiyyə sistemində həyata keçirilən islahatların mühüm bir istiqaməti əhaliyə göstərilən tibbi xidmətin əhatəsini genişləndirmək, bölgələrdə cərrahiyyə əməliyyatlarını təşkil etmək, müayinə və müalicə işlərini daha da yaxşılaşdırmaqdan ibarətdir.***

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri bu imkanlardan səmərəli istifadə edərək bölgələrdə cərrahi əməliyyatları uğurla davam etdirirlər. Yeni səhiyyə müəssisələrindən olan Culfa Rayon Mərkəzi Xəstəxanasında da cərrahiyyə əməliyyatlarının aparılması diqqət mərkəzindədir. Ötən şənbə keçirilən növbəti aksiya Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tədbirlər planına uyğun olaraq, görkəmli elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümünə həsr edilmişdi.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin cərrahları Abasət Hüseynəliyev, İsa Abdullayev, Şahin Məmmədov, uroloq Nazim İbrahimov, Nazlı İbrahimova, İlhamə Əsgərova, anestezioloq Ənvər Şıxəliyev və əməliyyat blokunun tam heyəti ambulator müyinənər zamanı 97 xəstəyə tövsiyələrini veriblər. Cərrahi müdaxiləyə ehtiyacı olan 62 nəfər üzərində uroloji, proktoloji qiqant, yırtıq, öd kisəsi əməliyyatları aparılıb. Əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr birgünlük müşahidədən sonra evlərinə buraxılıblar. Ordubad rayonundakı Sabirkənddə yaşayan Əli və Amin qardaşları üzərində də uğurlu əməliyyat aparılıb. Onların atası, birinci qrup əlil İqrar Məmmədov övladlarının başqa yerlərə getmədən, ərazidə yerləşən səhiyyə müəssisəsində pulsuz əməliyyat olunmasına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib.

Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri yerli həkimlərə tibbi avadanlıqların işləmə qaydalarını da öyrədiblər. Laboratoriyada ümumi analizlərin olunması, infeksiyaların təyini, aparatların işləmə mexanizmi yerli həkim və tibb işçilərinə izah edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Daha iki kənddə kompleks quruculuq işlərinə başlanılıb

***Hər il Şərur rayonunun müxtəlif kənd yaşayış məntəqələrində sosial infrastruktur layihələri həyata keçirilir, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyaları, yeni məktəb binaları tikilir və ya yenidən qurulur, yollar salınır.***

Tikinti-quruculuq işləri cari ildə Arbatan kəndində davam etdirilir. Artay LTD Tikinti Şirkətinin inşaatçıları burada məktəb binasının, kənd və xidmət mərkəzlərinin inşası ilə məşğuldurlar. Təhsilin səviyyəsini yüksəltmək məqsədilə inşa olunan iki mərtəbədən ibarət məktəb binası 234 şagird yerlik nəzərdə tutulub. Burada idman zalı, 2 soyunub-geyinmə otağı, 2 laboratoriya, kitabxana, hərbi kabinə, direktor, psixoloq və müəllimlər otaqları, 2 elektron lövhəli sinif, 1 kompüter və 1 şahmat sinifləri, 12 sinif otağı olacaq.

Kənd mərkəzinin binasında da sürətli iş ahəngi təmin edilib. Mərkəzdə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi və digər qurumların normal fəaliyyət göstərmələri üçün hərtərəfli şərait yaradılacaq.

Kənd sakinləri tərəfindən böyük minnətdarlıq hissi ilə qarşılanan quruculuq tədbirlərindən biri də kənddə xidmət mərkəzinin tikintisidir.

Texniki təhlükəsizlik qaydalarına əməl olunan hər üç obyektdə tikintini vaxtında və keyfiyyətlə başa çatdırmaq üçün inşaatçılara hərtərəfli şərait yaradılıb.

* * *



*Babək rayonunun kiçik yaşayış məntəqələrindən biri olan Mərzə kəndi bu gün əsl tikinti meydançasını xatırladır. Məlumat üçün bildirək ki, sovet dönəmində bu kənddə gözəçarpan quruculuq tədbiri həyata keçirilməyib. Burada fəaliyyət göstərən dövlət qurumları öz vəzifələrini uyğunlaşdırılmış binalarda yerinə yetiriblər.*

Mərzə kəndi yaxın vaxtlarda kompleks quruculuq tədbirləri hesabına müasir yaşayış məntəqəsinə çevriləcək. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək Rayon İdarəsinin kollektivi kənddə 3 yeni obyektin tikintisinə başlayıb. Mərzədəki binalardan biri kənd tam orta məktəbi üçün nəzərdə tutulub. 270 şagird yerlik məktəb binası 3 mərtəbədən ibarət olacaq. Hazırda obyektdə təməlatma işləri həyata keçirilir.

Məktəb binasının yaxınlığında inşa olunan kənd mərkəzi iki mərtəbədən ibarət olacaq. Burada kəndin müxtəlif qurumlarının fəaliyyəti üçün nümunəvi şərait yaradılacaq.

Mərzə kəndinin sakinlərinə daha bir dövlət qayğısı isə bu yaşayış məntəqəsində xidmət mərkəzinin tikintisidir.

Kompleks quruculuq tədbirləri çərçivəsində kəndarası yolların təmiri də nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

## Xarici ticarət dövriyyəsinin həcmi artıb

Naxçıvan Muxtar Respublikasında infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verib. Ötən dövrdə sahibkarlığın inkişaf etdirilməsinə göstərilən dövlət qayğısı nəticəsində istehsal müəssisələrinin sayı artıb, yerli məhsulların növ və çeşidinin həcmi yüksələn xətt üzrə inkişaf edib. Ən əsası yerli istehsalın şaxələnməsi xarici ticarət əlaqələrinin genişlənməsinə şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2016-cı ilin yanvar-mart aylarında muxtar respublikanın xarici ticarət dövriyyəsinin həcmi bir il öncəyə nisbətdə 8,5 faiz artaraq 64 milyon 199 min 800 ABŞ dolları təşkil edib. Xarici ticarət dövriyyəsinin 52 milyon 680 min 700 ABŞ dollarını ixrac, 11 milyon 518 min 800 ABŞ dollarını idxal təşkil edib ki, bu da 41 milyon 161 min 900 ABŞ dolları həcmində müsbət saldonun yaranmasına imkan verib.

# Sahibkarlığa dövlət dəstəyi uğurlu Naxçıvan modelinin yaranmasına səbəb olub

### *Yaradılan yeni müəssisələr hesabına muxtar respublikada da minlərlə daimi iş yerləri açılıb, daxili bazarda yerli istehsalın çəkisi artıb*



Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası blokada şəraitində yaşayan bir regiondur. XX əsrdə müxtəlif siyasi hadisələr səbəbindən ölkəmizin digər əraziləri ilə quru əlaqəsi kəsilən bu qədim diyar 1990-cı illərin əvvəlində çox ağır günlər yaşayıb. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə rus qoşunları xalqın azadlıq ruhunu qanla boğmaq üçün paytaxt Bakıya yeridiləndə, Ermənistan silahlı qüvvələri də Sədərək rayonu istiqamətindən Naxçıvana hücuma keçiblər. İşğalçı ermənilərin başlıca məqsədi blokada şəraitində yaşayan bu qədim Oğuz-türk yurdunu istila etmək olub. Həmin dövrdə mərkəzi hakimiyyətin başı paytaxt Bakıda törədilən qətliama qarışdığından muxtar respublikaya hər hansı yardım uzatmaq imkanları olmayıb, bu region düşmənlə üz-üzə tək-tənha dayanmaq məcburiyyətində qalıb. Lakin böyükdən kiçiyə qədər bütün naxçıvanlılar silaha sarılıb, mərdliklə öz torpaqlarının müdafiəsinə qalxıblar. Ümummilli lider Heydər Əliyevin bu ərəfədə Naxçıvana olması muxtar respublika əhalisinin özünə inamını, mübarizlik ruhunu daha da artırıb. Naxçıvanın Ermənistanla sərhəd ərazilərində qanlı döyüşlər getsə də düşmən öz məqsədinə çata bilməyib, böyük qurbanlar bahasına olsa belə, muxtar respublikanın hər qarış torpağı göz bəbəyi kimi qorunub.

#### *Pis günün ömrü az olar…*

Təbii ki, belə bir şəraitdə muxtar respublikada iqtisadi vəziyyət də olduqca çətin olub. Bütün kommunikasiya qurğularından məhrum olan muxtar respublikada sovetdən qalma istehsal müəssisələrinin də dayanması böyük işsizlər ordusu yaradıb. Kəndlilərin üzləşdiyi çətinliklər kənd təsərrüfatı sahəsində tənəzzülü qaçılmaz edib. Belə bir vaxtda Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədrlik edən ümummilli lider Heydər Əliyev ölkə üzrə ilk dəfə muxtar respublikada aqrar islahatlar həyata keçirib, torpaq bölgüsü aparılıb. Qonşu İran İslam və Türkiyə respublikaları ilə iqtisadi əlaqələrin qurulmasına başlanılıb. Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında – Araz çayı üzərində "Ümid" körpüsünün istifadəyə verilməsi Naxçıvanın iqtisadi inkişafında, naxçıvanlıların həyat səviyyəsinin yaxşılaşmasında mühüm rol oynayıb. Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gələndə də Naxçıvan Muxtar Respublikasına xüsusi diqqət və qayğı göstərilib. 1996-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Vasif Talıbov ulu öndərin bu qayğısından bəhrələnərək muxtar respublikanın hərtərəfli inkişafı üçün geniş islahatlara start verib. Ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dövlət başçısı İlham Əliyevin Prezident seçildiyi 2003-cü ildən indiyə qədər də Azərbaycanın bütün regionlarına, o cümlədən Naxçıvan Muxtar Respublikasına diqqət və qayğı göstərilməkdədir.

#### *Yüksək əməkhaqqı göstəricilərinə malik 6713 yeni iş yeri*

Azərbaycan Prezidentinin, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladıqları sərəncam və fərmanlarla həyata vəsiqə alan regional inkişaf proqramları, bu dövlət sənədlərində nəzərdə tutulan vəzifələrin icrası sayəsində blokada şəraitində yaşayan Naxçıvan bu gün özünün intibah dövrünə qədəm qoyub. Hazırda da muxtar respublikada sahibkarlığın inkişafı sahəsində ardıcıl tədbirlər görülür, yeni istehsal sahələri yaradılır, daxili bazarda yerli istehsalın çəkisi günbəgün artır. Təkcə 2014-cü il sentyabrın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən qəbul edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasından ötən müddət ərzində Sahibkarlığa Kömək Fondunun vəsaitləri hesabına muxtar respublikada 43 investisiya layihəsi maliyyələşdirilib, bütövlükdə, sahibkarlara 17 milyon 319 min 200 manat həcmində kreditlər verilib. Bunun nəticəsində də yeni-yeni istehsal sahələri yaradılıb ki, bu da qeyri-neft sektorunu inkişaf etdirməklə bərabər, yüksək əməkhaqqı göstəricilərinə malik 6713 yeni iş yerinin açılmasına səbəb olub. 2016-cı ilin I rübü ərzində isə Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən ötən ildən davam edən 1 layihə də daxil olmaqla, 7 layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 2 milyon 67 min 698 manat maliyyə dəstəyi göstərilib. Hazırda 14 müxtəlif təyinatlı istehsal müəssisəsi, 5 müxtəlif növ xidmət sahəsi olmaqla, ümumilikdə, 19 müəssisənin yaradılması istiqamətində işlər davam etdirilir ki, bu layihələrin də başa çatdırılması yüzlərlə, minlərlə yeni iş yerlərinin açılması deməkdir.





#### *Həm keyfiyyətli, həm zövqlü, həm də sərfəli*

Misal üçün, bu günə qədər uğurla həyata keçirilən regional inkişaf proqramları, həmçinin sahibkarlığa verilən dövlət dəstəyi hesabına ərsəyə gələn sahibkarlıq subyektlərindən biri də "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Muxtar respublika bazarlarında özünəməxsus yeri olan "Ləzzət" əmtəə nişanlı məhsullar həm keyfiyyətinə, həm də zövqlü qablaşdırılmasına, məhsullardan seçilən qiymətinə görə də sərfəlidir. Hazırda 35 adda, 88 çeşiddə məhsul istehsal edən "Ləzzət Qida Sənaye" MMC-nin fəaliyyətə başladığı ilk illərdə istehsal müəssisəsində 10 nəfər işçi çalışırdısa, bu gün onların sayı dəfələrlə artıb. Cəmiyyətin tərkibində gündəlik istehsal gücü 18 ton olan kənd təsərrüfatı məhsullarının təmizlənməsi, çeşidlənməsi, qovurulması və paketlənməsi, 7 ton qənd, 2,4 ton olan vafli, peçenye, biskvit və digər qənnadı məmulatları, 45 gündə 135 ton quş əti istehsalı sahələri fəaliyyət göstərir. Müəssisələrdə məhsul istehsalı üçün sərf olunan xammala ehtiyac, əsasən, yerli əhalidən alınan məhsullar hesabına ödənilir. Bu da yerlərdə aqrar sektorun inkişafına, torpaq mülkiyyətçilərinin maddi marağının artmasına, istehsalın güclənməsinə, kənd adamlarının məşğulluğunun təmin olunmasına müsbət təsir göstərir. Müəssisənin məhsulları daxili tələbatı ödəməklə yanaşı, İran və Gürcüstana da ixrac olunur, Rusiya, ABŞ, Ukrayna, Türkiyə, Çin, Hindistan, İran və digər ölkələrdən olan 50-dən artıq istehsalçı firma ilə əməkdaşlıq edilir.

#### *Yerli tikinti materiallarına olan tələbatın ödənilməsi*

"Gəmiqaya Kərpic Kompleksi" MMC isə son illər Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində yerli tikinti materiallarına olan tələbatın ödənilməsi zərurətindən yaradılıb. Kərpic Zavodunun istehsal gücünün artırılması və qış mövsümündə də tam gücü ilə işləməsi üçün qurutma sexində Türkiyə istehsalı olan və kompüterlə idarə edilən müasir texnoloji avadanlıqlar quraşdırılıb, kərpiclə dolu diyircəkli arabaların avtomatik hərəkəti üçün dəmir relslər çəkilib, istiliklə təminat və nəmliyin aradan qaldırılması üçün xüsusi qurğular qurulub. Ümumiyyətlə, müəssisənin bir-birini tamamlayan 3 istehsal sahəsində – kərpickəsmə, kərpicbişirmə və qurutma sexlərində istehsal prosesinin təkmilləşdirilməsi və daha müasir texnoloji avadanlıqların alınıb quraşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilib. Fəaliyyətə başlayan zaman gün ərzində 25 min ədəd kərpic istehsal olunan zavodda hazırda 45-50 min ədəd kərpic istehsal etmək imkanı yaradılıb. Zavod xammalın yerləşdiyi ərazidə inşa olunduğundan əlavə daşınma xərci çəkilmir, boşdayanma hallarına yol verilmir. Zavodun istehsal gücünün artırılması artan tələbatın ödənilməsinə və daxili bazarın keyfiyyətli yerli tikinti materialları ilə təmin edilməsinə əlverişli şərait yaratmaqla bərabər, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb.











#### *Vacib elementlərlə zəngin məhsullar*

Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində yaradılan və hazırda Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Bərəkət Qida Məhsulları" MMC-də isə dövlət maliyyəsi hesabına 2003-cü ildə çörək, 2004-cü ildə makaron və peçenye, 2005-ci ildə süd məhsulları istehsalı sahələri yaradılıb. Bu istehsal sahələrində Almaniya, Türkiyə və İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Müəssisənin fəaliyyətinin genişləndirilməsi, istehsal gücünün artırılması, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi məqsədilə 2011-ci ildə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb, Şərq şirniyyatları istehsalı sahəsi yaradılıb. Ötən il də bu istiqamətdə işlər davam etdirilib, Şərq şirniyyatları istehsalı sahəsində Türkiyənin "Uyğurlar Makina", İtaliyanın "Braluks" şirkətlərinin istehsalı olan, kompüterlə idarəetmə mərkəzi ilə təmin edilmiş avadanlıqlar alınıb quraşdırılıb, alıcı zövqünü oxşayan yeni çeşiddə, müasir dizaynda məhsul istehsalına başlanılıb. Burada fermer və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən xammal şəklində alınan süd məhsullarının vaxtında tədarük olunması da diqqət mərkəzində saxlanılır, xüsusi maşınlarla müəssisəyə daşınıb laborator analizdən keçirildikdən sonra istehsala buraxılır. Gündəlik istehsal gücü 15 ton olan süd məhsulları istehsalı sahəsində Almaniyanın "GEA", Türkiyənin "Choromel", "Lipovak" şirkətlərindən müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Müəssisədə insan orqanizmi üçün vacib elementlərlə zəngin olan 100 faiz təbii süddən kərə yağı, pendir, qatıq və ayran istehsal olunur, "Bərəkət" əmtəə nişanı ilə satışa çıxarılır.

#### *Adlı-sanlı Naxçıvan duzu*

Gündəlik istehsal gücü 40-45 ton daş, 20-25 ton üyüdülmüş duz olan "Naxçıvan Duz İstehsalı" MMC-də isə hazırda 18 çeşiddə duz istehsal olunur və bu məhsullardan məişətdə, heyvandarlıqda, kimya sənayesində geniş istifadə edilir. Yodlaşdırılmış duz həm nəfis tərtibatla bəzədilmiş 0,5, 1 kiloqramlıq karton və plastik, həm də 0,2, 0,5 kiloqramlıq polietilen taralarda və 25 kiloqramlıq kisələrdə "Duzdağ" əmtəə nişanı ilə satışa çıxarılır. 68 nəfərin işlə təmin olunduğu müəssisənin ixrac potensialı ildən-ilə genişləndirilir. Xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal olunan duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. "Naxçıvan Duz İstehsalı" MMC-də 2001-ci ildə 2300, 2014-cü ildə 6200 ton duz istehsal edilib. 2015-ci ildə isə "Naxçıvan Duz İstehsalı" MMC-də 8 min 339 ton 700 kiloqram məhsul istehsal edilib. İstehsal edilən məhsul muxtar respublikada, eləcə də Azərbaycanın müxtəlif regionlarındakı satış mərkəzlərində satışa çıxarılıb, həmçinin xaricə də ixrac olunub.

#### *Uğurlu iqtisadi strategiya*

Muxtar respublika iqtisadiyyatında əldə edilən nailiyyətləri daha aydın təsəvvür etmək üçün "Gəmiqaya Bərəkət Qida Məhsulları", "Ləzzət Qida Sənaye", "Gəmiqaya Kərpic Kompleksi", "Naxçıvan Duz İstehsalı" MMC-lər kimi çoxsaylı sahibkarlıq subyektlərini nümunə gətirmək olar. Bütün bunlar bir daha onu göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi strategiya ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da müsbət nəticələr verir, ümumdünya iqtisadi böhranı fonunda regionlarımızın inkişafını təmin edir, insanlarımızın sosial rifahını günbəgün yaxşılaşdırır.

**Məhəmmədəli QƏRİBLİ**
***Azinforum.az saytının təsisçisi və baş redaktoru***

*Yazı İqtisadiyyat Nazirliyi tərəfindən kütləvi informasiya vasitələri nümayəndələri arasında elan edilmiş yaradıcılıq müsabiqəsinə təqdim edilir.*

## “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə

2016-cı il martın 15-də “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti həmin Qanunun tətbiqi barədə 2016-cı il aprelin 20-də Fərman imzalamış və Qanunda nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini müəyyən etmişdir. Bu Qanun qəbul edilənədək Azərbaycan Respublikasında lisenziya və icazələrlə bağlı münasibətləri tənzimləyən vahid qanun olmamış, bu sahədə tənzimlənmə ayrı-ayrı normativ hüquqi aktlarla həyata keçirilmişdir.

*“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının icra hakimiyyəti orqanları tərəfindən lisenziya verilən fəaliyyət növlərinin siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.*

*Həmin Qanunun 6.2-ci maddəsinə əsasən isə Naxçıvan Muxtar Respublikasının ərazisində lisenziya və icazə verən icra hakimiyyəti orqanlarını Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi müəyyən edir.*

Naxçıvan Muxtar Respublikasında lisenziya tələb edən fəaliyyət növləri Azərbaycan Respublikası Prezidentinin “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” 2015-ci il 21 dekabr tarixli Fərmanının 4-cü hissəsinə əsasən müəyyən edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin tapşırığı ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2016-cı il 11 yanvar tarixli Qərarla “Naxçıvan Muxtar Respublikasında bəzi fəaliyyət növlərinə lisenziya verən icra hakimiyyəti orqanlarının siyahısı”nı təsdiq etmişdir. Həmin qərara əsasən muxtar respublikada lisenziya verilən fəaliyyət növlərinin siyahısı aşağıdakı kimi müəyyənləşdirilmişdir:

| Sıra №-si | Fəaliyyət növünün adı |
|---|---|
| 1. | Özəl tibb fəaliyyəti |
| 2. | Əczaçılıq fəaliyyəti |
| 3. | Rabitə xidmətləri: |
| 3.1. | telefon (məftilli) |
| 3.2. | sellülar (mobil) rabitə xidmətləri (texnoloji standartın adı göstərilməklə) |
| 3.3. | radiotrank və simsiz telefon |
| 3.4. | İP-telefoniya (internet telefoniya) |
| 3.5. | məlumatların ötürülməsi (data) |
| 3.6. | sürətli poçt xidməti |
| 4. | Təhsil fəaliyyəti: |
| 4.1. | məktəbəqədər təhsil müəssisələri |
| 4.2. | ümumtəhsil müəssisələri (liseylər və gimnaziyalar daxil olmaqla) |
| 4.3. | ilk peşə – ixtisas təhsili müəssisələri (peşə məktəbləri və peşə liseyləri) |
| 4.4. | orta ixtisas təhsili müəssisələri |
| 4.5. | ali təhsil müəssisələri |
| 4.6. | əlavə təhsil müəssisələri |
| 4.7. | dini orta ixtisas təhsil müəssisələri |
| 4.8. | ali dini təhsil müəssisələri |
| 5. | Müxtəlif növ möhürlərin və ştampların hazırlanması |
| 6. | Teleradio yayımı (televiziya və radio yayımı, əlavə informasiya yayımı, kabel şəbəkəsi yayımı, peyk vasitəsilə yayım, xarici teleradio kanallarının peyk vasitəsilə teleradio yayımının kodlaşdırılmış qurğularla həyata keçirilməsini təmin edən fəaliyyət) |
| 7. | Yabanı dərman bitkiləri xammalının yığılması |
| 8. | Prekursorların istehsalı, idxalı, ixracı və tranzit nəql edilməsi |
| 9. | Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması |
| 10. | Maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması və istismarı |
| 11. | Dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması |
| 12. | Liftlərin quraşdırılması və təmiri fəaliyyəti |
| 13. | Attraksionların istismarı |
| 14. | Qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması və təmiri |
| 15. | Təhlükə potensiallı obyektlərdə istismar olunan avadanlığın və texniki qurğuların diaqnostikası və digər texniki yoxlamaların keçirilməsi |
| 16. | Yanğından mühafizə fəaliyyəti: |
| 16.1. | yanğınsöndürmə texnikası məhsulunun istehsalı və satışı, sınaqlarının keçirilməsi |
| 16.2. | yanğından mühafizə sistemlərinin və vasitələrinin quraşdırılması, texniki xidməti və təmiri |
| 16.3. | yanğınsöndürmə ləvazimatının, ilkin yanğınsöndürmə vasitələrinin təmiri və onlara xidmət, yanğınsöndürmə vasitələrinin keyfiyyətinin bərpası |
| 17. | Tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işləri |
| 18. | Tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi |
| 19. | Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri |
| 20. | Özəl baytarlıq təbabəti fəaliyyəti |
| 21. | Baytarlıq preparatlarının: |
| 21.1. | istehsalı |
| 21.2. | satışı |
| 22. | Biometrik texnologiyaların yaradılması və həmin texnologiyalara xidmət göstərilməsi |

## Naxçıvanın turizm potensialı – *Nuh* diyarına açılan yeni qapı

***Yeraltı və yerüstü sərvətləri, zəngin faydalı qazıntıları, xəstələrə şəfa verən mineral bulaqları ilə məşhur, Gəmiqaya təsviri sənət abidələri, bədii tərtibatlı boyalı qablar, tunc məmulatlar, tarixi abidələr diyarı Naxçıvan Muxtar Respublikası bu gün həm də dünyanın gözəl turizm məkanlarından biridir.***

Muxtar respublikanın əlverişli coğrafi-siyasi mövqeyi, müxtəlif iqlim qurşaqları və təbiəti, zəngin və çeşidli heyvanat aləmi, tarixi-mədəni irsi, özünəməxsus və zəngin mətbəxi, yüksək qonaqpərvərlik ənənələri, turizm sahəsinə nəinki dövlət təşkilatlarının, həmçinin özəl firmaların, xarici investor və sahibkarların cəlb edilməsinə imkan verən yeni sosial-iqtisadi şəraiti, birmənalı olaraq muxtar respublikanın hər yerində – hətta ən ucqar dağ kəndlərində belə, əlverişli infrastrukturun yaradılması və rəhbərliyin bu sahənin inkişafına xüsusi diqqəti Naxçıvanda turizmin hərtərəfli inkişafına şərait yaradır.

Naxçıvan Muxtar Respublikası əlverişli siyasi-coğrafi mövqeyə malikdir. Belə ki, Türkiyə Respublikası və İran İslam Respublikası kimi turizm potensialı böyük olan ölkələrlə həmsərhəd olması, Böyük İpək Yolunun üzərində yerləşməsi turizmin muxtar respublikada inkişafına şərait yaradan əsas amillərdəndir. Burada turizmin tarixi-mədəni, ekoloji və kənd yaşıl turizm, ziyarət, müalicə, etnik, dağçılıq və digər növlərinin inkişaf etdirilməsinə şərait vardır.

Muxtar respublikanın ərazisinin əsas hissəsi Zəngəzur və Dərələyəz dağ silsilələrindən və Arazboyu uzanan maili düzənliklərdən ibarətdir. Ərazinin 75 faizi 1000 metrlik yüksəklikdən mütləq yuxarıda yerləşir. Bu diyar özünün füsunkar təbiəti, rəngarəng bitki və heyvanlar aləmi ilə seçilir. İlk baxışda muxtar respublikanın ərazisi nə qədər quru və çılpaq görünsə də, daxilən bir o qədər zəngin və rəngarəngdir. Burada Azərbaycanın nadir fauna və florası məskunlaşmışdır. Dünyada olan 11 iqlim qurşağından yeddisinə Naxçıvan Muxtar Respublikasında rast gəlinir. Muxtar respublika ərazisində 3 mindən yuxarı bitki növü, 350-dən çox heyvan növü vardır. Azərbaycan Respublikasında qeydə alınmış 366 quş növünün yarıdan çoxu – 247-si muxtar respublika ərazisində məskunlaşmışdır. Bəzi bitki və heyvan növləri muxtar respublika üçün endemikdir. Muxtar respublikanın kəndlərinin çox hissəsi dağlıq ərazilərdə, çay vadilərində yerləşir. Bu baxımdan da Naxçıvanda ekoloji və onun bir qolu olan kənd yaşıl,



dağçılıq turizmi inkişaf etdirilir.

Geniş ərazi, münbit torpaq, saf su, təmiz hava, bol Günəş – bunlar zəngin təbiət sərvətləridir. Muxtar respublikada Günəş radiasiyası il üzrə Azərbaycanda ən yüksək olub – 144-156 kkal/sm²-dir. Naxçıvan Muxtar Respublikasının təbii bitki ehtiyatlarının böyük hissəsi – 700-ə yaxın növü dərman bitkiləridir. Azərbaycanın mineral su ehtiyatının 60 faizi muxtar respublikanın payına düşür. Burada 250-yə yaxın mineral su mənbəyi qeydə alınmışdır. Bu mineral suların bir hissəsi müalicə məqsədilə istifadə edilir (Badamlı, Sirab, Darıdağ, Böyrək suyu və sair). Eyni vaxtda 350 xəstəni qəbul etmək imkanına malik Duzdağ Fizioterapiya Mərkəzi və Culfa rayonundakı Darıdağ Arsenli Su Müalicəxanası bir çox ölkələrdən gələn yüzlərlə turistin üz tutduğu əsas müalicə mərkəzlərindəndir. Bir sözlə, müalicə turizminin inkişafı üçün potensial böyükdür.

Hər hansı bir ölkənin turizm potensialından danışdıqda oranın tarixi-mədəni irsi ön plana çəkilir. Naxçıvanın tarixinin min illərlə ölçülməsi, burada dünya memarlığının incisi sayılan tarixi memarlıq abidələrinin olması, zəngin mədəni irsi bu diyarı xarici turistlər üçün əhəmiyyətli edir. Mömünə xatın, Yusif Küseyiroğlu türbələri, Qarabağlar Memarlıq Kompleksi, Xanəgah Abidə Kompleksi, adı Nuh Peyğəmbərin gəmisi ilə bağlanan Gəmiqaya daşüstü yazıları, əfsanəvi İlanlı dağ, abidələrlə zəngin olan qoruq-şəhər Ordubad, haqqında müqəddəs “Qurani-Kərim”də bəhs edilən Əshabi-Kəhf ziyarətgahı, 5000 ildən çox yaşı olan Naxçıvan şəhəri, qədim tikililər, qalalar, yaşayış yerləri və nekropollar, günümüzə qədər qorunub saxlanılmış xalq sənəti nümunələri turistlərin diqqətini daha çox cəlb edir. Buraya Naxçıvan diyarının zəngin folklorunu, musiqi və təsviri sənətini, ədəbiyyatını da əlavə etsək, tarixi-mədəni turizmin inkişaf etdirilməsi üçün necə böyük imkanların olduğunun şahidi olarıq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli Sərəncamına əsasən qeydə alınmış 1202 daşınmaz tarix-mədəniyyət abidəsinin 57-si dünya əhəmiyyətli, 500-ə yaxını ölkə əhəmiyyətlidir. Möminə xatın türbəsi, Xan sarayı, Zaviyəmədrəsə binası, Naxçıvan Came məscidi, Nuh Peyğəmbərin məzarüstü türbəsi, Şərq hamamı, Naxçıvan şəhərindəki və Şərur rayonundakı imamzadələr, Ordubad şəhərindəki Qeysəriyyə (Zorxana), qədim hamam, yeraltı məbəd, Culfa rayonu ərazisindəki Əshabi-Kəhf ziyarətgahı, Xanəgah Abidə Kompleksi, “Əlincəqala” tarixi abidəsi bərpa olunub. Hazırda Gülüstan türbəsinin bərpası davam etdirilir.

Tarixi-mədəni turizmin inkişafında turizm nümayişi obyektlərinin özünəməxsus yeri var. Bu baxımdan Naxçıvan Muxtar Respublikasını “muzeylər diyarı” da adlandırmaq olar. Muxtar respublikada 29 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir ki, onların 16-sı 1995-ci ildən sonra yaradılmışdır. 1 təbiət qoruğu, 1 milli park, 3 təbiət yasaqlığı, 1 ziyarətgah kompleksi, 3 teatr, 2 filarmoniya, banklar, ticarət mərkəzləri və sair turizmin inkişafında mühüm əhəmiyyətə malikdir.

Muxtar respublikada 21 mehmanxana var. Təbriz və Duzdağ mehmanxanaları 5 ulduz kateqoriyasındadır. 3 hüquqi və 4 fiziki şəxs turizm fəaliyyəti ilə məşğul olur.

| | **2001** | **2007** | **2008** | **2015** |
|---|---|---|---|---|
| Mehmanxana | 5 | 22 | 22 | 21 |
| Nömrə fondu | 187 | 516 | 654 | 623 |
| Yer sayı | 317 | 1145 | 1438 | 1448 |
| Qonaq qalıb | 4576 | 18638 | 20226 | 60275 |
| Ondan xaricilər | 2391 | 11926 | 13230 | 42634 |

| **2006** | **2007** | **2010** | **2014** | **2015** |
|---|---|---|---|---|
| –Muxtar respublikaya gələn turistlər: | | | | |
| 93930 | 140895 | 288000 | 378102 | 390000 |

Muxtar respublika rəhbərinin apardığı sosial-iqtisadi siyasət sayəsində Naxçıvanın hər yerində əlverişli infrastruktur yaradılmışdır. Ucqar dağ kəndlərinə, təbiətin əlçatmaz guşələrinə rahat yollar çəkilmişdir. Tarixi abidələr bərpa edilir, ətrafı abadlaşdırılır, qorunub saxlanılır. Kiçik və orta sahibkarlığın inkişafına xüsusi qayğı göstərilir. Bütün bunlar da turizm potensialından istifadəyə təkan verən mühüm amillərdir.

Naxçıvan Muxtar Respublikasında turistlərin komfortlu istirahəti üçün müasir mehmanxana, yol-nəqliyyat, restoran şəbəkəsi mövcuddur. Həmçinin fasiləsiz elektrik enerjisi, sürətli internet, müasir tələblərə cavab verən telefon rabitəsi turizm infrastrukturunun vacib elementləridir. Muxtar respublika ərazisindəki birdəfəlik tutumu 1400 nəfərdən çox olan 20-dən artıq mehmanxanada gələn turistlərin rahat gecələməsi, burada işgüzar görüşlərin keçirilməsi üçün müasir şərait yaradılmışdır. Hazırda Naxçıvan-Qarabağlar, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincəqala, Naxçıvan-Ordubad, Naxçıvan-Batabat turizm marşrutları fəaliyyət göstərir. Muxtar respublikanın turizm potensialının təbliği istiqamətində ardıcıl iş aparılır. Naxçıvanın tarixi, mədəniyyəti, turizm marşrutları, mətbəxi, adət-ənənələri ilə bağlı onlarla adda reklam-informasiya materialları hazırlanmış, reklam çarxları və filmlər çəkilmişdir. Turizmin inkişafı həm də bu sahədə peşəkar kadrların olmasından çox asılıdır. Muxtar respublikada bu sahənin ixtisaslı kadrlarla təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görülür. Haliyədə Naxçıvan Dövlət Universitetində və “Naxçıvan” Universitetində Turizm və otelçilik ixtisası üzrə kadrlar hazırlanır.

***Xeberoxu.com informasiya saytı***

26 aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür

# Əqli mülkiyyət hüququnun qorunması davamlı inkişafı təmin edir

***Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş Assambleyasının 2000-ci ildə qəbul etdiyi qərarla hər il aprelin 26-sı Beynəlxalq Əqli Mülkiyyət Günü kimi qeyd olunur.***

Əqli mülkiyyət hər bir ölkənin davamlı inkişafında əsas rol oynayır. Çünki elm, texnika və mədəniyyətin inkişafı əqli mülkiyyət hüququnun qorunmasından asılıdır. Bu mənada əqli mülkiyyətin mühafizəsi sahəsindəki dövlət siyasəti həm də ölkənin elmi-texniki potensialının inkişafı və bu potensialdan səmərəli istifadəyə səbəb olur. Buna görə də əqli mülkiyyət məsələlərinin milli qanunvericiliyə inteqrasiyası vacib şərtdir.

Azərbaycan Respublikasında ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə əqli mülkiyyətlə bağlı münasibətlərin tənzimlənməsi istiqamətində mühüm işlər görülmüş, əqli mülkiyyətin qorunması və inkişafına diqqət artırılmış, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. 1996-cı ildə “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, 1997-ci ildə “Patent haqqında”, 1998-ci ildə “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının qanunları qəbul olunmuş, ölkəmiz 1995-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsis etdiyi Konvensiyaya və Avrasiya Patent Konvensiyasına qoşulmuş, Avropa Patent Təşkilatı ilə əməkdaşlıq əlaqələri qurmuşdur.

Ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində isə ölkəmizdə əqli mülkiyyət sistemi daha da təkmilləşdirilmiş, müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları sahəsi prioritet istiqamətlərdən birinə çevrilmişdir. Dünyada gedən qloballaşma prosesi, bazarın liberallaşması, sahibkarlığın inkişafına dövlət qayğısı, əldə olunan sürətli iqtisadi inkişaf tempi ölkəmizdə əqli mülkiyyət sisteminin uğurlu fəaliyyətinə təminat yaratmışdır.

Əqli mülkiyyət sahələri – ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilər ölkəmizdə Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılmış normativ-hüquqi sənədlərlə tənzimlənir. Azərbaycan əqli mülkiyyət hüquqlarının qorunması sahəsində beynəlxalq sistemə uğurla inteqrasiya olunmuş, yaradıcılıq fəaliyyətinin nəticəsi olan elm, ədəbiyyat və incəsənət əsərlərinin qorunmasına hüquqi zəmin yaradılmışdır. 2012-ci ildə “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul olunması isə bu sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirmişdir.

Naxçıvan Muxtar Respublikasında əqli mülkiyyətin qorunması və inkişafı sahəsində aparılan dövlət siyasətinin nəticəsində əqli mülkiyyət və əqli mülkiyyət obyekti olan ənənəvi biliklər etibarlı qorunur və inkişaf etdirilir. Muxtar respublikanın sosial-iqtisadi inkişafına paralel olaraq əqli mülkiyyət hüquqlarının qorunması prioritet məsələlər sırasındadır. Son illər bu istiqamətdə həyata keçirilən tədbirlər isə öz uğurlu bəhrələrini verməkdədir. Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin qarşısında muxtar respublikada əqli mülkiyyətin formalaşdırılması və regional inkişafa uyğunlaşdırılaraq sənayedə tətbiqi kimi mühüm vəzifələr dayanır. Komitə sənaye mülkiyyəti obyektlərinin mühafizəsi üçün əqli mülkiyyətin qorunması sahəsində mütəmadi tədbirlər həyata keçirir, muxtar respublikada əqli mülkiyyətin və patent sahəsinin inkişafını diqqət mərkəzində saxlayır. Bu tədbirlər çərçivəsində 2009-cu ildə Naxçıvan şəhərində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının, Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin və Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə “Əqli mülkiyyət və ənənəvi biliklər” mövzusunda beynəlxalq simpozium keçirilmişdir.

Son illər komitəyə ixtiraya dair iddia sənədinin qeydiyyata alınması ilə bağlı 64, sənaye nümunəsinə dair 116, faydalı model üçün isə 6 müraciət daxil olmuş və dövlət ekspertizası aparılmışdır. Ekspertiza zamanı qüvvədəolma müddəti 20 il olmaqla, 26 ixtiraya, qüvvədəolma müddəti 10 il olmaqla, 38 sənaye nümunəsinə və 1 faydalı modelə patent verilmişdir. Həmçinin ötən dövrdə əmtəə nişanlarına və coğrafi göstəricilərə mühafizə sənədi almaq üçün 1626 iddia sənədi daxil olmuş, onlardan qüvvədəolma müddəti 10 il olmaqla əmtəə nişanlarına dair 940, coğrafi göstəricilərə dair 5 şəhadətnamə dövlət reyestrində qeydiyyata alınaraq sahibkarlara verilmişdir.

Komitənin tərkibində fəaliyyət göstərən Elmi-Texniki Kitabxananın patent fondu da komplektləşdirilmişdir. Ötən dövrdə fondda xarici ölkələrə məxsus 3 min 655 ixtira, həmçinin əmtəə nişanları və coğrafi göstəricilər, ixtiralar, faydalı modellər və sənaye nümunələrinə dair rəsmi bülletenlər toplanmış və yeni ədəbiyyatlarla zənginləşdirilmişdir.

Muxtar respublikada əqli mülkiyyətin qorunması və inkişafı sahəsində işlər 2015-ci ildə də davam etdirilmiş, komitənin əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması diqqət mərkəzində saxlanılmış, onlar ölkəmizdə keçirilən müxtəlif seminarlarda iştirak etmişlər. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Şəhər İcra Hakimiyyəti ilə birgə şəhər mühitinin abadlaşdırılması və landşaft memarlığı mövzusunda “Ənənəvi memarlıq üslubları və innovativ tendensiyalar” adlı müsabiqə elan edilmişdir.

***Muxtar respublikada əqli mülkiyyətin inkişaf etdirilməsi, ixtiraların istehsalatda tətbiqi və alınmış patentlərin beynəlxalq mühafizəsi tədbirləri bundan sonra da davam etdiriləcəkdir.***

**Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 15 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş ictimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi qaydalarına əsasən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi müsabiqə elan edir

Cəmiyyətdə polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsi, vətəndaşların ictimai asayişin qorunmasında istirakı, habelə polis orqanları tərəfindən vətəndaşların könüllülük əsasında ictimai asayişin təmin olunması işinə cəlb edilməsi məqsədilə 02.05.2016-cı il tarixdən 04.06.2016-cı il tarixədək həftənin 1-ci və 6-cı günləri (bayram günləri istisna olmaqla) saat 10[00]-da Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində mülki işçi vəzifələrinə Azərbaycan Respublikası vətəndaşlarının qəbulu ilə əlaqədar sıra baxışı keçiriləcəkdir.

Polis orqanları ilə əməkdaşlığa şəxsi və işgüzar keyfiyyətlərinə görə fərqlənən, müddətli həqiqi hərbi xidmət keçmiş, ali və ya orta ixtisas, yaxud tam orta təhsilli, boyu 180 sm-dən yuxarı, yaşı 20-dən az və 24-dən çox olmayan, özü və yaxın qohumları məhkum edilməmiş Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Qeyd edilən tələblərə cavab verən və işə qəbul olunan şəxslər polis orqanlarının vəzifəli şəxslərinin rəhbərliyi altında ictimai asayişin qorunması üzrə funksiyaların (polisə ictimai dəstək) yerinə yetirilməsinə cəlb olunacaq, xüsusi geyim forması ilə təmin ediləcəklər. Onlara Daxili İşlər Nazirliyinin mülki işçiləri üçün müəyyən edilmiş təminatlar şamil olunacaqdır. İctimai asayişin qorunmasında 2 il ərzində əməkdaşlıq etmiş şəxslərə daxili işlər orqanlarında xidmətə qəbul zamanı üstünlük veriləcəkdir.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

***Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

*Naxçıvan Dövlət Universiteti aşağıdakı fakültələr və kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

**Fakültələr üzrə dekan vəzifəsini tutmaq üçün**

1. Təbiətşünaslıq və kənd təsərrüfatı
2. Pedaqoji
3. Tibb
4. İqtisad
5. İncəsənət

**Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. Beynəlxalq münasibətlər
2. Bədən tərbiyəsi və idman
3. Roman-german dilləri
4. Ümumi və nəzəri fizika
5. Hüquq fənləri
6. İqtisadiyyat
7. Bəstəkarlıq
8. Musiqi təlimi
9. Xalq çalğı alətləri
10. Arxiv işi və muzeyşünaslıq

**Kafedralarda boş olan vəzifələri tutmaq üçün**

1. Azərbaycan dilçiliyi – dosent – 1 yer; baş müəllim – 2 yer; müəllim – 1 yer
2. Memarlıq – dosent – 1 yer; baş müəllim – 1 yer
3. Riyazi analiz – dosent – 1 yer (0,5 ştat)
4. Musiqişünaslıq və metodika – baş müəllim – 2 yer
5. İqtisadiyyat – dosent – 2 yer; dosent – 1 yer (0,5 ştat); baş müəllim – 1 yer; müəllim – 2 yer (0,5 ştat)
6. Mühasibat uçotu və maliyyə – dosent – 1 yer
7. Kimya – dosent – 1 yer
8. Fənlərin tədrisi metodikası və texnologiyası müəllimliyi – dosent – 1 yer; baş müəllim – 2 yer
9. Pedaqogika və psixologiya – baş müəllim – 2 yer
10. Fortepiano – baş müəllim – 1 yer
11. Botanika – dosent – 1 yer (0,5 ştat)
12. Şərq dilləri və ədəbiyyatı – baş müəllim – 1 yer (0,5 ştat)
13. Roman-german dilləri – baş müəllim – 3 yer; baş müəllim – 1 yer (0,5 ştat)
14. Hüquq fənləri – dosent – 1 yer (0,5 ştat); dosent – 2 yer; baş müəllim – 2 yer; müəllim – 1 yer
15. Baytarlıq təbabəti – dosent – 1 yer (0,5 ştat); baş müəllim – 1 yer (0,5 ştat)
16. Musiqi təlimi – baş müəllim – 2 yer
17. İngilis dili (tərcümə) – baş müəllim – 1 yer
18. Rus dili və ədəbiyyatı – baş müəllim – 4 yer
19. Ümumi və nəzəri fizika – dosent – 1 yer; baş müəllim – 2 yer
20. Ümumi riyaziyyat – dosent – 1 yer; dosent – 1 yer (0,5 ştat); baş müəllim – 1 yer (0,5 ştat)
21. Zoologiya – dosent – 1 yer; dosent – 1 yer (0,5 ştat); baş müəllim – 1 yer
22. Ümumi təbabət və gigiyena – dosent – 2 yer; baş müəllim – 1 yer; müəllim – 1 yer (0,5 ştat)
23. Bələdiyyə və turizm – dosent – 1 yer (0,5 ştat)
24. Meliorasiya və su təsərrüfatı tikintisi – baş müəllim – 1 yer (0,5 ştat); baş müəllim – 1 yer
25. Təməl-tibb fənləri – baş müəllim – 1 yer
26. Ümumi tarix – dosent – 1 yer (0,5 ştat); dosent – 1 yer
27. Azərbaycan tarixi – dosent – 2 yer; professor – 1 yer (0,5 ştat)
28. Çağırışaqədərki hazırlıq və mülki müdafiə – baş müəllim – 1 yer
29. Fiziki tərbiyə və idman oyunları – baş müəllim – 1 yer
30. Bədən tərbiyəsi və idman – baş müəllim – 1 yer (0,5 ştat)
31. İnformatika – dosent – 1 yer
32. Arxiv işi və muzeyşünaslıq – baş müəllim – 1 yer

*Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.*

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi.***
***Telefon: (036)545-23-66/10-01***

## İməciliklər mütəşəkkilliklə keçirilib

*Muxtar respublikamızda diqqət mərkəzində saxlanılan məsələlərdən biri də ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsidir. Bu məqsədlə həyata keçirilən iməciliklər mühüm rol oynayır.*



Aprelin 23-də keçirilən növbəti iməciliklərdə ötən iməciliklərdə salınmış yaşıllıq zolaqlarına aqrotexniki qulluq göstərilib, belə sahələrin həcminin ağac və gül kollarının əkini ilə genişləndirilməsi davam etdirilib. Belə ki, Naxçıvan şəhərinin sakinləri park və xiyabanlarda 30 ədəd həmişəyaşıl ağac, 100 ədəd gül kolu əkib, Sement Zavodunun yaxınlığında, müəssisə və təşkilatların yaşıllıq sahələrində ağacların diblərini alaq otlarından təmizləyib və suvarma işləri aparıblar.

Şərur rayonunun mərkəzi Şərur şəhərinin park və xiyabanlarında 5300 ədəd gül kolu əkilib, Püsyan və Xanlıqlar kəndlərində ağaclara aqrotexniki qulluq göstərilib.

Babəklilər bu tədbiri Yarımca-Sirab kəndləri yolundakı yaşıllıqlarda həyata keçiriblər.

Ordubad rayonunda keçirilən iməciliklərdə Naxçıvan-Ordubad magistral yolunun Aza, Dəstə, Aşağı Əylis və Düylün kəndləri hissəsində ağacların dibləri alaq otlarından təmizlənib və suvarılıb.

Culfa rayonunun sakinləri müəssisə və təşkilatların yaşıllıq sahələrində çalışıblar.

İməcilik günü Kəngərli sakinləri Çalxanqala kənd yolunun kənarlarında salınmış yaşıllıqlara aqrotexniki qulluq göstəriblər.

Şahbuz rayon sakinləri də ötən şənbə günü keçirilən iməcilikdə fəallıq göstəriblər.

Həmin gün sədərəklilər Naxçıvan-Sədərək magistral yolunun sağ hissəsində, Sədərək kənd 2 nömrəli tam orta məktəbin həyətində və rayon Elektrik Şəbəkəsinin qarşısındakı bağda çalışıblar.

İməcilik günü muxtar respublikanın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik və abadlıq işləri aparılıb.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Naxçıvan şəhərinin Qaraçuq kəndində yaşamış Rəcəbov Əli Vəli oğlunun adına olan JN-223[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır .

* * *

Naxçıvan şəhərinin Qaraçuq kəndində yaşamış Rəcəbov Əli Vəli oğlunun adına 6 iyun 1991-ci ildə verilmiş 196 nömrəli texniki pasport itdiyindən etibarsız sayılır

* * *

Culfa rayonunun Bənəniyar kənd sakini Əliyeva Zöhrə Hacəli qızının adına olan JN-813[B] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Qabıllı kəndində yaşamış Hüseynova Tamara Hüseynqulu qızının adına olan JN-110[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

“Gülüstan” kəndli-fermer təsərrüfatına məxsus 0700110591 nömrəli VÖEN şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 318